# “Gəncədə sahibkarlıq ənənəsi tarixən olub...”

***Onunla çoxdan planlaşdırdığım görüş nəhayət baş tutdu... Bakıda, “Babək Plaza” nın 10-cu mərtəbəsindəki ofisində qabaq-qənşər əyləşmişik. O danışır, mən qulaq asıram. Nə bir qeyd aparıram, nə sözünü kəsib sual verirəm. Çünki maraqlı danışır. Hiss edirəm ki, sahibkarlığın inceliklərini, inkişaf yollarını, başqa sözlə, onun həm nəzəriyyəsini, həm də praktikasını dərindən bilir. Arabir də gülümsəyərək “Sizi yormadım ki?” deyə soruşur, sanki söhbətinin düzgün məcrada olub-olmadığını öyrənmək istəyir. Səmimi deyirəm, çoxdan idi belə kreativ düşüncəli, arzuları bol, qarşısında konkret məqsəd və proqramı olan iş adamı ilə rastlaşmırdım.***

Beləliklə, Zəfər Məmmədov, Gəncə İş Adamları İctimai Birliyinin sədri, “Zəfəroğlu” şirkətlər qrupunun rəhbəri. Gəncə şəhərində anadan olub və bu ilin mayında 40 yaşı tamam olur. Əvvəlcə Gəncədəki 5 nömrəli orta məktəbdə, daha sonra 18 nömrəli orta məktəbdə təhsil alıb. 1999-cu ildə Odlar Yurdu Universitetinin hüquq fakültəsinə daxil olub və 2003-cü ildə oranı bitirib. 2003-2005-ci illərdə həmin universitetdə mülki hüquq ixtisası üzrə magistr təhsili alıb. 2005-2006-cı illərdə hərbi xidmətdə olub.

2006-cı ilin sonlarında “Gəmiqaya-ZMH” adlı daşınmaz əmlak agentliyini,2010-cu ildə isə “Zəfəroğlu” inşaat şirkətini yaradıb və elə o vaxtdan da oranın rəhbəridir. Şirkət indiyədək müxtəlif beynəlxalq mükafatlara layiq görülüb.

2013-cü ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Memarlıq fakültəsinə daxil olub, 2016-cı ildə oranı bitirib və həmin ildən ADRA-da müəllim kimi fəaliyyətə başlayıb.

Zəfər Məmmədov 2021-ci ildən “Gəncə İş Adamları İctimai Birliyi”nin sədri və Gəncə Şəhər İcra Hakimiyyəti yanında İctimai Şuranın üzvüdür.



***– İndiki halda iş adamı olmaq asandır, ya çətin?***

– Birmənalı deyirəm asandır. Bilirsiniz niyə? Çünki ölkədə qanunlar işləyir, biznes üçün işgüzar mühit yaradılıb. Səni incitmirlər. Digər tərəfdən ürəklisən, cəsarətlisən və bilirsən ki, ən böyük qarantın ölkə Prezidentidir və hər zaman səni müdafiə edəcək. Bax, bunlar çox vacib amillərdir.

Bilirsiniz, əslində şirkət yaratmaq, biznes qurmaq çətin deyil, ən başlıca iş onun davamlılığına nail olmaqdır. Məsələn, mən, ilk şirkəti yaradanda çox gənc idim və bunun mahiyyətini və önəmini bir o qədər də anlamırdım. Daşınmaz əmlak sahəsi yaratmışdım və kifayət qədər uğurlu idi. Amma bir müddət sonra Ukraynada da digər şirkət qurdum, daha sonra Dubayda və digər ölkələrdə çalışdım. Lakin bir qədər sonra uğursuzluqla qarşılaşdım. Çünki gərək bir işi başladınsa sonunadək gedəsən, ona dəyər verəsən. Yalnız bundan sonra digər işlər qurmaq barədə düşünmək olar.

***– Belə başa düşdüm ki, bu uğursuzluqlardan sonra “Zəfəroğlu” şirkətini yaratdınız...***

– Bəli, 2009-cu ilin sonunda “Zəfəroğlu inşaat” şirkətini yaratdım. Hazırda şirkət özünə müəyyən yer qazandıra bilib. “Zəfəroğlu”nun bir neçə bölməsi var və fərqli istiqamətlərdə fəaliyyət göstəririk. Bunlar inşaat, dizayn, təmir, mebel, pərdə və travel sahələridir. Bundan başqa “Zəfəroğlu Elektrik” MMC-miz var və biz artıq lampa istehsal etməyə başlamışıq.

***– Yəqin keçən ilin sonlarında Gəncədə açdığınız LED lampaları istehsal edən zavody nəzərdə tutursunuz.***

– Tamamilə doğrudur. Azərbaycanda ilk lED lampaları istehsal edən zavod məhz Gəncədə fəaliyyətə başlayıb. Bu müəssisənin açılış mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) idarə heyətinin sədr müavini Natiq Həsənov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, KİV nümayəndələri, çoxsaylı iş adamları və qonaqlar iştirak edib. İcarəyə götürdüyümüz istehsal sahəsi Gəncənin mərkəzində, indiyədək istifadəsiz qalmış keçmiş toxuculuq kombinatının ərazisində yaradılıb. Müəssisənin ərazisini abadlaşdırmışıq, işçilərin fəaliyyəti və istirahəti üçün şərait yaratmışıq, xaricdən gətirilən müasir avadanlıqlar quraşdırmışıq. Yeri gəlmişkən, toxuculuq kombinatının rəhbərliyinə bizə yaratdıqları şəraitə və dəstəyə görə öz dərin minnətdarlığımı bildirirəm. Bir iş adamı kimi bizi başa düşdü, müəyyən sahə ilə təmin etdi.

Hazırda zavodda “Zəfər İşığı” brendi altında müxtəlif ölçülərdə "LED" tipli lampalar istehsal edilir. Sənaye müəsisəsinin istehsal gücü ayda 500 min ədəd lampa istehsal etməyə imkan verir. Lampaların özəl xüsusiyyəti onların davamlı olması, o cümlədən kənar təsirlərdən sınmamasıdır. Belə ki, bu lampalar bərk səthə düşəndə də qırılmır.

***– Bəs xammalı haradan alırsınız, maliyyə mənbələriniz nəyin hesabına formalaşıb?***

– Qeyd edim ki, xammalın 65 faizi ölkə daxilindən əldə edilir. Gələcəkdə yerli xammal payının daha da artırılması nəzərdə tutulur. Hazırda müəssisədə gündə 4 min ədəd lampa istehsal olunur. Amma bu, son hədd deyil. İstehsalın həcmi da artacaq, işçilərin sayı da.

“Zəfəroğlu Elektrik” MMC-in yaranmasına Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Sahibkarlığın İnkişafı Fondu böyük dəstək göstərib. İlkin olaraq yatırılan 1 milyon manat investisiyanın 50 faizi SİF tərəfindən təqdim edilib. Bundan başqa dövlət dəstəyi olaraq investisiya təşviqi sənədi alınıb. Bu sənədin olması “Zəfəroğlu Elektrik” MMC-yə vergi və idxal zamanı gömrük güzəştləri əldə etməyə imkan yaradır.

Belə bir zavodun işə düşməsi Azərbaycan iqtisadiyyatında daha bir sahədə idxalı əvəz etməyə imkan yaradacaq. Zavodda istehsal olunan məhsullar, xaricdən idxalın azalmasına səbəb olacaq. Gələcəkdə isə istehsal olunan lampaların xaricə ixracı və ölkəyə valyutanın gətirilməsi nəzərdə tutulur.

Müəssisənin işə düşməsi ilə hələlik 30 yeni iş yeri açılıb. Amma yaxın aylarda işçi sayının 50-yə, gələn ilin sonunadək isə 100 nəfərə çatdırılmasını nəzərdə tutmuşuq.

***– Deyirlər Gəncədə belə bir müəssisəni açmağınız yenicə təsis etdiyiniz Gəncə İş Adamları İctimai Birliyinin sanki şəxsi nümunəsi, sahibkarlara bir çağırışı idi, elə deyilmi? Bir də ki, bu birlik haqqında daha ətraflı***



***məlumat verməyinizi xahiş edirik.***

– Əslində deyilənlərdə bir həqiqət var. İctimai birlik yaratmısansa və öz ətrafında sahibkarları birləşdirmisənsə,gərək şəxsi nümunə də göstərəsən. Ötən il dekabrın 18-də Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə bu Birliyin təqdimat mərasimi keçirildi. Məqsəd Gəncə şəhərində fəaliyyət göstərən sahibkarları vahid bir platforma ətrafında birləşdirmək, həm ölkə daxilində, həm xaricdəki Gəncəli iş adamlarını doğma şəhərlərinə də investisiya yatırmağa cəlb etməkdir. Digər tərəfdən sahibkarlara dəstək olmaq, onların biznes üçün yaradılan imkanlara çıxışına nail olmaqdır.

Gəncə Şəhər İcra Hakimiyyəti, şəxsən Niyazi müəllim bu prosesə dəstək verir, hər cür köməyə hazır olduğunu bildirir. Biz sovet dövründən qalma köhnə müəssisələrin bazasında yeni istehsal sahələrinin yaradılmasını təklif edirik. Axı sən 20-30 il qabaq böyük bir müəssisəni özəlləşdirib qapısından da bir qıfıl vurmusansa, yəni heç bir iş yeri yaratmırsansa, istehsalla məşğul olmursansa, yaxşısı budur, kənara çəkil, yerini iş görə bilənlərə təhvil ver. Müəyyən təkliflər hazırlayıb fikrimizi əlaqədar qurumlara bildirmişik. Bu işin hüquqi tənzimlənməsi lazımdır. Artıq bir sıra xarici iş adamları da Gəncəyə yatırım etməyə hazır olduqlarını bildirib.




Gəncədə tarixən sahibkarlıq ənənəsi olub. Hətta sovet dövrü də şəhərdə sahibkarlığın qarşısını ala bilməyiblər. Hazırda ölkədə sahibkarlığın inkişafı ilə bağlı bir sıra istiqamətdə işlər aparılır. Bura biznes mühitinin təkmilləşdirilməsi, maliyyə mənbələrinə, o cümlədən altenativ maliyyələşmə mənbələrinə çıxışın təmin edilməsi, biznes xidmətlərinin genişləndirilməsi, sahibkarlar arasında təmasların təşkil edilməsi və sair aiddir.

Gəncə-Daşkəsən iqtisadi regionu böyük iqtisadi potensiala malikdir.

Fəaliyyətə başlamasından qısa müddət keçməsinə baxmayaraq qurum artıq biznes forumlara və işgüzar görüşlərə qatılır, sosial məsuliyyət aksiyaları keçirir, o cümlədən vətən müharibəsi qaziləri və şəhid ailələrinin problemlərinin həllində yaxından iştirak edir.




***– Gəncədə fəaliyyət göstərən sahibkarlar Sizcə hansı problemləri həll etməyə çalışmalıdırlar ki, istehsal tədricən qaydaya düşsün, yeni iş yerləri yaradılsın, xaricə rəqabətqabiliyyətli məhsullar ixrac oluna bilsin?***

– Düşünürəm ki, bu bölgədə sahibkarların əsas problemi hələlik birləşə, bir araya gələ bilməməsidir. Halbuki biz sahibkarlarla ən müxtəlif görüşlər keçirik. Onların bir çoxu isə birləşməyə o qədər də meylli deyil. Belə bir münasibət, bu cür yanaşma onların rəhbərlik etdikləri qurumlarda problemlərin həllinə kömək edə bilməz. Digər tərəfdən belə olduqda biz də dəqiq məlumat əldə edə bilmirik ki, onları narahat edən konkret hansı məsələlərdir. Bizim imkanlarımız, əlaqələrimiz, sözün yaxşı mənasında əksər nazirlik və baş idarələrlə isti münasibətimiz formalaşıb. Adi iş adamının bəzən bir aya həll edə bilmədiyi hər hansı bir işi bəzən bir günə yoluna qoya bilirik. Bununla bağlı onlarla misal çəkə bilərəm.

***– Səhv etmirəmsə, bir akademiya da yaratmısınız. Səmərəsi varmı?***

– Bu, “Zəfəroğlu Akademiya”sıdır. Əsas fəaliyyəti dizayn və memarlıq üzərində qurulub. Universiteti bitirən və ya hələ təhsilini davam etdirən, amma bu sahəyə marağı olan hər kəsə qapımız açıqdır. Akademiyada dizayn proqramları tədris edilməklə yanaşı, həm də onların praktikada tətbiqi öyrədilir. Akademiyada təhsil pullu olsa da şəhid ailələrinin üzvləri və imkanı olmayan, amma bu sahəyə marağı böyük maraq göstərən şəxslər pulsuz təhsil ala bilərlər. Hər ay 20-30 tələbədən artıq tələbə götürmürük ki, tədrisi daha kefiyyətlə apara bilək. Akademiyanı bitirənlərin 70-80 faizi mütləq işlə təmin olunur.

***– Yəqin ki, arzularınız, hədəfləriniz çoxdur...***

– Yola saldığımız 2021-ci ilə nəzər salsaq görərik ki, uğurlarımız var.Təbii ki, hər bir sahibkar kimi biz də məlum pandemiyanin mənfi təsirlərini hiss etmişik. Buna baxmayaraq güclü və iradəli komandamla birlikdə əl ələ verib, məqsədimizə nail olmağa çalışmışıq. Mebel sahəsində bir sıra yeniliklər etmişik.Tezliklə yeni “Showroom” sahəsi müştərilərimizin xidmətinə veriləcək. Həmçinin bayaq qeyd etdiyimiz kimi "Zəfəroğlu Elektrik" MMC-ni təsis edərək Azərbaycanda ilk dəfə LED lampa zavodunu açmışıq.

Tam səmimi deyirəm. Gəncə İş Adamları Birliyinin yaradılması mənə xüsusi sevinc bəxş edib. Çox qısa zaman kəsiyində yerli ve beynəlxalq konfranslarda iştirak etmişik. Səfirliklər, xarici ticarət palataları və dövlət qurumları ilə daha sıx əməkdaşlıq etməyə başlamışıq. GİA ailəsi olaraq uğurlu nəticələrə imza atmağa qismən də olsa nail olmuşuq.

Qarşımızda duran hədəflərə və məqsədlərə çatmaq üçün daha böyük həvəslə, var gücümüzlə çalışacağıq.

***Söhbəti yazdı:***
***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***